# Azərbaycanlılara qarşı bəşəri cinayətlər

***XIX əsrin əvvəllərində ermənilər Cənubi Qafqaza gətirib yerləşdirmiş Rusiya imperiyası, ilk növbədə, özünə xristian əhalidən dayaq yaratmağı və bu yersiz-yurdsuz toplumdan çirkin məqsədlər üçün istifadə etməyi nəzərdə tutmuşdu. Vətəni, paytaxtı, yetkin mədəniyyəti, tarixdə mütərəqqi rol oynamış liderləri olmayan ermənilərin Qafqazda məskunlaşdırılmasında Şimali Azərbaycan ərazisinə xüsusi yer verilmişdi.***

Çar Rusiyası cənub qonşuları ilə müharibələrdən və Azərbaycanın şimalını işğal edəndən sonra İrandan 40 min, Osmanlı ərazisindən isə 200 mindən çox erməni köçürmüşdü. Onlar, əsasən, Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarının dağlıq hissələrində məskunlaşdırılmışdılar. Qafqaza gətirilmiş erməni toplumu ilk günlərdən xalqımızın başına bəla olmuşdu. Azərbaycan ərazisindəki ermənilər öz məkrli niyyətlərini həyata keçirmək – yerli əhalinin tarixi vətənində özlərinə milli dövlət qurmaq üçün 1918-ci ilin yanvarından başlayaraq Cənubi Qafqazın türk-müsəlmanlara qarşı heç bir səbəb olmadan, müxtəlif bəhanələrlə soyqırımı aksiyaları həyata keçimişdilər.

Təpədən-dırnağadək silahlandırılmış erməni quldur dəstələri azərbaycanlı əhalini qırmaq, var-yoxunu talan etmək, onları ata-baba yurdlarından didərgin salmaq, torpaqlarımızı ələ keçirmək üçün bütün düşmən qüvvələrlə birləşmişdilər. Mart qırğınları ərəfəsində Rus Milli Şurası Cənubi Qafqazın xristian əhalisinə müraciət edərək mart ayının 11-dən 18-nə kimi 19–25 yaşına çatmış bütün rus gənclərinin hərbi səfərbərliyə alınması elan etmişdi. Qafqaz cəbhəsinin ləğv olunması ilə əlaqədar vətənlərinə qayıdan rus əsgərləri silah-sursatlarını dəyər-dəyməzinə ermənilərə satmışdılar.

Azərbaycanın qabaqcıl ziyalıları yaxınlaşmaqda olan qanlı faciəni qabaqcadan görürdülər. Ölkədə fəaliyyət göstərən müsəlman cəmiyyətləri “Daşnaksütyun” partiyasının azğınlığının qarşısını almaq məqsədilə özünümüdafiə dəstələri yaratmağa məcbur oldular. Bakıda, Gəncədə, Lənkəranda özünümüdafiə hissələri yaradılmasına və Bakı kadet məktəbində gənclərdən zabit kadrları hazırlanmasına başlanıldı.

Azərbaycanda milli-azadlıq hərəkatının genişlənməsi, öndə gedən “Müsavat”! partiyasının nüfuzunun artması, tarixdə heç vaxt mövcud olmayan “Böyük Ermənistan” arzusu ilə yaşayan daşnakları narahat edirdi. Onlar mart soyqırımı törətməklə “Müsavat” partiyasının sosial bazasını– azərbaycanlı əhalini kütləvi surətdə qırmağı planlaşdırmışdılar. Həmin soyqırımını həyata keçirmək üçün Birinci Dünya müharibəsi cəbhələrində vuruşmuş mindən çox ermənini Bakıya gətirmişdilər. “Qırmızı qvardiya” adı ilə yaradılan 10–12 minlik dəstənin 70 faizi ermənilərdən ibarət idi. Tərkibi, əsasən, ruslardan ibarət olan Xəzər dəniz donanmasında isə azərbaycanlılar əleyhinə təbliğat aparılırdı. Bu sahədə ermənilər xüsusi fəallıq göstərirdilər.

Erməni bolşevik H.Əsriyans öz gündəliyində yazmışdır: “1918-ci ilin fevralında T.Əmirov bizi yığıb bildirdi ki, S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də xüsusi siqnal olacaq, bu xəbərdarlıq siqnalından sonra biz hücum edib, “Müsavat” partiyasının qərargahını tutmalı idik və belə də oldu”. Göründüyü kimi, soyqırımın rəhbəri və təşkilatçısı xalqımızın qəddar düşməni S.Şaumyan olmuşdur.

Bakıda və digər yaşayış məntəqələrində xalqımıza qarşı soyqırımı üçün bəhanə tapıldı. Münaqişəyə səbəb “Evelina” gəmisi ətrafında baş verən hadisə oldu. Xeyriyyəçi, Azərbaycan milli burjuaziyasının lideri Hacı Zeynalabdin Tağıyevin Lənkəran şəhərində hərbi xidmətdə olan oğlu Məhəmməd Tağıyev öz tapançası ilə bəxtini yoxlayarkən həlak olmuşdu. Azərbaycan alayının zabitləri onun dəfnində iştirak etmək üçün Bakıya gəlmişdilər. Dəfn mərasimindən sonra hərbi heyət həmin gəmi ilə yenidən Lənkərana qayıtmalı idi.

Əlverişli şəraitin yetişdiyini görən ermənilər Rus Milli Şurası, Xəzər Hərbi Donanması əsgərləri, matrosları, eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya, “Evelina” gəmisində gedən hərbçilərə göstəriş verilmişdir ki, Lənkəranda və Muğanda olan rus hərbçilərini yerli azərbaycanlıların köməyi ilə qırsınlar. Bu təxribata inanan, Bakıda yerləşən bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr “Evelina” hərbi gəmisində olan hərbçilərin tərksilah edilməsinə tərəfdar çıxdılar. Fürsəti əldən verməyən düşmən qüvvələr vaxt itirmədən martın 30-da S.Şuamyanın başçılığı ilə Bakı mədən-zavod rayonlarının inqilabi müdafiə komitəsini yaratdılar.

İnqilabi Müdafiə Komitəsinin göstərişi ilə “Evelina” hərbi gəmisi Lənkərana gedərkən yolda saxlanıldı və tərksilah olundu. Bu hadisədən xəbər tutan azərbaycanlı əhali məscidlərə yığışaraq müsadirə edilən bütün hərbi sursatın geri qaytarılmasını qətiyyətlə tələb etdi. Bakıda siyasi vəziyyətin durmadan gərgin xarakter aldığını nəzərə alan Azərbaycan milli təşkilatlarının nümayəndələri İnqilabi Müdafiə Komitəsinə gələrək alınmış silahların “Hümmət” müsəlman bolşevik komitəsinin iştirakı ilə geri qaytarılmasına cəhd göstərdilər.

Martın 30-da N.Nərimanov, S.Şaumyan və M.Ə.Rəsulzadənin görüşü keçirildi. Görüşdə əsas məsələ barədə müəyyən razılıq əldə edilsə də, “Hümmət” təşkilatı etibar etmədiyi bolşevik-daşnak birliyinin tələbinə əməl etmədi. “Hümmət”in başqa narazılıqları da var idi. Beləliklə də, qabaqcadan əldə olunmuş razılığa əsasən, bolşevik-daşnak birliyi, daşnakxislət bolşevik S.Şaumyanın dediyi kimi, həlledici döyüşlərə bütün hazırlıq görmüşdü və dərhal bütün cəbhə boyu hücuma başlandı.

Martın 30-da axşam saat 5-də Bakıda ilk soyqırımı atəşləri açıldı. Tarixə azərbaycanlıların qanlı soyqırımı kimi daxil olan mart qırğınları 3 gün fasilə vermədən davam etdi. Mart soyqırımı günlərində Bakı menşevikləri, eserlər və hətta bolşeviklərə dərin nifrət bəsləyən kadetlər də bolşevikləri müdafiə edəcəklərini bəyan etdilər. Bir-birinə dərin nifrət bəsləyən bu qüvvələri birləşdirən siyasi və sosial səbəblər milli və dini zəmində baş verən qarşıdurmalar idi.

Erməni Milli Şurası və daşnaklar öz silahlı qüvvələrinə döyüşlərə başlamaq əmri vermişdi. Onların döyüş əməliyyatlarına Bakıdakı “Kazino” mehmanxanasında yerləşən təcili açılmış təlim qərargahından rəhbərlik A.Mikoyana və N.Ananşekoya həvalə olunmuşdu. İlk günlər Xəzər donanmasının matrosları bolşevik-daşnak qüvvələrinin yalanlarına inanaraq onları müdafiə edirdilər. Lakin Azərbaycan nümayəndələri donanmaya gedərək matrosları neytrallaşdıra bildilər. Bakıda rus əhalisinə qarşı zorakılıq edilmədiyini öyrənən matroslar şəhərə açılan atəşi dayandırdılar.

Martın 31-də səhərə yaxın bütün silahlı qüvvələrin başçıları və silahlanmış erməni ziyalıları İnqilabi Müdafiə Komitəsinin hərbi qərargah məntəqəsinə toplaşdılar. Bu quldurlar rəhbərlərindən hərtərəfli göstərişlər aldıqdan sonra Azərbaycan əhalisinin yaşadıqları məhəllələrə göndərildilər. Qatillər evlərə soxulur, sakinləri öldürür, kişiləri, qadınları, ahılları, uşaqları qılıncla doğrayır və qarşılarına çıxanları tüfənglərin süngüləri ilə vəhşicəsinə öldürürdülər.

Arxiv materiallarında göstərilir: “Bakının bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 50 nəfər müsəlman qadınının meyidi tapılmışdır. Çoxlu gənc qadını diri-diri divarlara mıxlamışlar. Qaçıb canını qurtarmağa çalışan əhalini güllləbaran etmək üçün Bakı şəhərinin müxtəlif yerlərində əvvəlcədən pulemyotlar yerləşdirilmişdi”. Belə qeyri-insani əməllərin törədilməsində erməni kilsə xadimlərinin də fəal iştirakı olmuşdu.

Erməni-daşnak quldurlarının xalqımıza qarşı törətdikləri soyqırımı Bakı ilə məhdudlaşmadı. Düşmənlər Şamaxıda, Qubada, Xaçmazda da kütləvi qətliamlar törətdilər. Azərbaycan qəzalarına göndərilən və “Sovet qoşunları” adlandırılan erməni quldur dəstələrinə T.Əmirov və H.Amazasp rəhbərlik edirdilər.

Şamaxı qəzasında baş verən soyqırım hadisələri qanlı mart günlərinin ən faciəli səhifələrini təşkil edir. 1918-ci ilin yazında Azərbaycan qəzalarında hakimiyyət müsavatçıların başçılıq etdikləri yerli milli şuraların əlində idi. Bunu özləri üçün təhlükə mənbəyi hesab edən Bakıdakı bolşevik-daşnak soveti Şamaxı şəhərini ələ keçirmək üçün bütün çirkin əməllərə əl atmışdı.

1918-ci il martın 13-də Şamaxı şəhərinə məlumat gəlmişdi ki, Bakı şəhərindən Şamaxıya doğru toplar, pulemyotlar, saysız-hesabsız hərbi sursatla iki mindən çox erməni qoşun dəstələri irəliləyir. Bu quldur dəstəyə S.Şaumyanın sağ əli olan daşnak S.Lalayan başçılıq edirdi. Onlar qarşılarına çıxan yaşayış məntəqələrini dağıdır, əhalini qırır və əmlaklarını qarət edirdilər. Martın 15-də səhər tezdən S.Lalayanın dəstəsi hücum edərək azərbaycanlılar yaşayan əraziləri güclü top atəşinə tutdular. Düşmən qüvvələr Şamaxını mühasirəyə alıb, axşam onun ən varlı hissəsi olan Piran-Şirvana soxuldular. Quldurlar evlərə girərək sakinləri qırır və talanlar edirdilər.

Nəticədə, Şamaxı şəhərinin və qəzanın 72 kəndi daşnaklar tərəfindən dağıdılmışdı. Şamaxı qırğınları zamanı 8 mindən çox azərbaycanlı öldürülmüşdü. Əhaliyə o dövrün pulu ilə 1 milyarddan artıq ziyan dəymişdi. Şamaxıda 15 min əhalidən 1921-ci ildə 1700 nəfər yaşayırdı.

Quba qəzasında həyata keçirilən soyqırıma isə Hamazasp başçılıq edirdi. 1918-ci ilin aprelində qəzanın 162 kəndini dağıtmış, 16 mindən çox müsəlmanı və 3 mindən çox dağ yəhudisini öldürmüşdülər.

Tayqulaq Andronikin, Dronun və Lalayanın quldur dəstələri Qarabağda, İrəvanda, Kürdəmirdə, Xaçmazda, Zəngəzurda və başqa ərazilərdə də qanlı soyqırımı həyata keçirmişdilər. Daşnaklar Şuşa ilə Ağdamın əlaqəsini kəsmək üçün Əsgəran qalasını tutmuşdular. Eyni zamanda, onlar bütün yolları, dağ cığırlarını da bağlamışdılar. Şuşada ərzaq qıtlığı yaranmışdı. Xoşbəxtlikdən, Laçının Zabux kəndindən Şuşa qalasına hücuma keçən ermənilər laçınlılar tərəfindən məhv edildi. 1919-cu il yanvarın 15-də isə Xosrov bəy Sultanov Qarabağa general-qubernator təyin edildi. Bu təyinat daşnaklar üçün gözlənilməz oldu və bundan sonra onların əl-qolu bağlandı.

Dərələyəz mahalında daşnak Dronun silahlı quldur dəstəsi ilə Abbasqulu ağa Şadlinskinin başçılıq etdiyi qüvvələr daşnaklara qarşı mübarizədə olduqca mühüm rol oynamışdılar. Dro burda 50 azərbaycanlı kəndini dağıtmış və əhalisini qırmış, əmlaklarını qarət etmişdi. A.Şadlinski daşnaklara qarşı mübarizəni Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da davam etdirmişdi.

Ermənilər Zəngəzurda da azərbaycanlılara qarşı soyqırımı törətmişdilər. Burda qanlı soyqırımı 1920-ci ilə kimi davam etmişdi. Daşnaklar bu qəzada 48 Azərbaycan kəndini dağıtmış və əhalisini qırmışdılar.

1918-ci il dekabrın 20-də Azərbaycan Xalq Cümhuriyyəti parlamenti bu cinayətləri hərtərəfli müzakirə etmiş və yuxarıda göstərilən qəzalarda yüzlərlə Azərbaycan kəndinin yandırılmasını, minlərlə soydaşımızın vəhşicəsinə öldürülməsini aşkara çıxarmışdı. Parlamentin üzvü Qara bəy Əliverdiyev Şuşadan Bakıya AXC hökumətinə 1918-ci il dekabrın 19-da göndərdiyi məlumatda daşnak Andronikin quldur dəstələri tərəfindən Zəngəzurda, Şuşada, Cəbrayılda, Tərtərdə, Ağdamda törətdikləri qanlı soyqırımlar haqqında ətraflı məlumatlar vermişdi.

Erməni millətçiləri 200 ildən artıq müddətdə Azərbaycan türklərinə və yerli müsəlman əhaliyə qarşı davamlı soyqırımları törətmişlər. Bu qanlı cinayətlərin arxasında torpaqlarımızı ələ keçirmək və xalqımızı kütləvi surətdə qırmaq siyasəti dururdu. Rusiya imperiyasının forpostu kimi torpaqlarımızda yaranan Ermənistan bu günə kimi havadarlarının köməyi ilə Azərbaycana qarşı təzyiq aləti rolunu oynamaqdadır.

1948–1953-cü illərdə Ermənistan deyilən oyuncaq dövlətdən yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından deportasiya edilməsi çar Rusiyasının işğalçılıq siyasətini və milli nədalətsizliklərini davam etdirən sovet imperiyasının antiazərbaycan münasibətinin daha bir təzahürüdür.

Azərbaycan xalqına qarşı erməni cinayətkarlığı sonrakı dövrdə də davam etmişdir. Qarabağ münaqişəsinin qanlı müharibəyə çevrildiyi zaman– 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri müasir silahlardan istifadə edərək Xankəndidə yerləşən 366-cı sovetdənqalma hərbi alayının fəal iştirakı ilə soydaşlarımızın yaşadığı Xocalıya hücum edib, azərbaycanlıları kütləvi surətdə qırdılar. Bu qətliam XX əsrin sonunda dünyada törədilən ən qanlı soyqırımı idi.

Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımından danışarkən demişdir: “Bu qəddar və amansız soyqırım aktı insanlıq tarixinə ən dəhşətli kütləvi terror aktlarından biri kimi daxil olmuşdur”.

Prezident Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin rəhbəri kimi imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli fərmanda ermənilərin xalqımıza qarşı törətdikləri bütün soyqırımı aksiyaları və qanlı deportasiyalar rəsmi surətdə əksini tapmış, bu qırğınlara ilk dəfə siyasi və hüquqi qiymət verilmiş, bu faciələr bəşəri cinayətlər kimi tövsih olunmuşdur. Həmin fərmanla ermənilərin xalqımıza qarşı törətdikləri kütləvi və davamlı qırğınların günahsız qurnalarının xatirəsini əbədiləşdirmək, soyqırımı həqiqətlərini dünyaya tanıtamaq və gələcək nəsillərə çatdırmaq üçün 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Allah xalqımızın soyqırımı qurbanlarına və erməni işğalçılarına qarşı döyüşlərdə həlak olmuş şəhidlərimizə rəhmət eləsin!

***Yunis HÜSEYNOV,***
***tarix üzrə fəlsəfə doktoru,***
***Şuşa şəhərindən məcburi köçkün***